Deloitte.



# 2023-ci ildə vergi və sosial sığorta qanunvericiliyində edilən dəyişikliklər

**Yanvar 2023**

# Gündəlikdə duran məsələlər

- Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları
- Qarabağın bərpasına yönəlmiş sosial sığorta azadolmaları
- "Virtual" daimi nümayəndəlik
- Nəzarət olunan xarici müəssisə
- Bazar qiyməti və transfer qiyməti
- Vergi nəzarəti
- Müxtəlif sahələr üzrə azadolmalar və güzəştlər
- Şəhadətnamə dublikatın ləğvi, qeyri-rezident banklar
- Şəhadətnamə dublikatın ləğvi, yerli banklar
- Maliyyə institutları və banklar üçün digər tələblər
- Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri
- Mənfəət vergisi
- Fiziki şəxslərin gəlir vergisi
- Məcburi dövlət sosial sığorta haqqı
- Əlavə dəyər vergisi
- Aksiz vergisi
- Əmlak vergisi
- Sadələşdirilmiş vergi
- Maliyyə sanksiyaları
- Nəzarət kassa aparatı
- Məsuliyyətə cəlb etmə, vergilərin ödənilmə və geri alınma müddəti

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları

## Vergitutma ilə bağlı ümumi müddəalar

- Vergi Məcəlləsinə Qarabağın bərpasına yönəlmiş vergi azadolmalarını əhatə edən yeni XIX fəsil əlavə edilir.

- İşğaldan azad edilmiş ərazinin rezidenti dedikdə, işğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşülür.

- Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları aşağıdakı fəaliyyət növləri və əməliyyatlara şamil edilmir:

- maliyyə xidmətləri
- avtonəqliyyat vasitələri ilə yük daşıma xidmətləri
- dövlət büdcəsinin vəsaitləri hesabına podratçı (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) tərəfindən malların (işlərin və xidmətlərin) təqdim edilməsi.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları

## Azadolmalar

- İşğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar.

- ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilmiş istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azaddır.

- İşğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azaddır.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları

## Azadolmalar

- Nəzərdə tutulan vergi azadolmaları aşağıdakı şərtlər daxilində tətbiq edilir:

- istehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə bu fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir. Bu cür vergi azadolması istehsal, o cümlədən emal və ya hasil edilərək işğaldan azad edilmiş ərazi daxilində və ya həmin ərazidən kənara təqdim edilən, habelə Azərbaycandan ixrac edilən mallara görə əldə olunan gəlirlərə şamil edilir.

- topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir. Bu cür əməliyyatlar Qarabağdan kənarda olan şəxslərlə aparıldıqda və ya ixrac edildikdə, nəzərdə tutulan vergi azadolmaları tətbiq edilmir.

- turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları

## Azadolmalar

- XIX fəsildə qeyd olunan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda da (Azərbaycan Respublikası ərazisi daxilində) eyni növ fəaliyyəti həyata keçirdiyi halda, nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir.

- XIX fəsildə qeyd olunan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda, o cümlədən Azərbaycandan kənarda digər fəaliyyət növü həyata keçirdiyi halda, işğaldan azad edilmiş ərazidə göstərilən fəaliyyətlə həmin ərazilərdən kənarda göstərilən digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

- Nəzərdə tutulan vergi azadolmaları işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş vergi azadolmaları

## ƏDV-nin geri qaytarılması

- Fiziki şəxs olan istehlakçılar tərəfindən işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödənilən ƏDV-nin 30 faizi, nağd qaydada ödənilən ƏDV-nin 5 faizi geri qaytarılır.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş sosial sığorta azadolmaları



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qarabağın bərpasına yönəlmiş sosial sığorta azadolmaları

## Qarabağın bərpası ilə bağlı sosial sığorta haqlarının subsidiyalaşdırılması

- Qarabağda fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər (sığortaolunanlar) tərəfindən muzdlu işdən əldə edilən gəlirlər üzrə ödənilən məcburi dövlət sosial sığorta haqqının aşağıdakı hissəsi dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır:

- 2023-cü il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək – 100 faizi miqdarında;
- 2026-cı il yanvarın 1-dən 2029-cu il yanvarın 1-dək – 80 faizi miqdarında;
- 2029-cu il yanvarın 1-dən 2031-ci il yanvarın 1-dək – 60 faizi miqdarında;
- 2031-ci il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək – 40 faizi miqdarında.

- Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunan tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının – 100 faizi;

- Fərdi qaydada (muzdlu işçi cəlb etmədən) fəaliyyət göstərən fiziki tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının – 100 faizi.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# «Virtual» daimi nümayəndəlik



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# «Virtual» daimi nümayəndəlik

## Əlavələr

- Rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası müəyyən ediləcək.

- Bu qaydada uçota alınan qeyri-rezident tərəfindən işlərin və xidmətlərin göstərilməsi üzrə yaranan ƏDV öhdəliyi qeyri-rezident şəxs tərəfindən hesablanıb ödənilir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət olunan xarici müəssisə



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət olunan xarici müəssisə

**Dəyişikliklər**

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Vergitutma məqsədləri üçün Azərbaycan Respublikasının rezidenti hesab olunmayan, **güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən** müəssisənin mənfəəti aşağıdakı hallarda Azərbaycan Respublikasında vergiyə cəlb olunur.<br>• Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxs özü və ya qarşılıqlı surətdə asılı olduğu rezident və ya qeyri-rezident şəxslə birlikdə birbaşa və ya dolayısilə xarici müəssisədə 50 faizdən çox səsvermə hüququna və ya onun nizamnamə kapitalının 50 faizindən çoxuna və ya həmin xarici müəssisənin mənfəətinin 50 faizindən çox hissəsini əldə etmək hüququna sahibdirsə;<br>• nəzarət olunan xarici müəssisənin mənfəətindən faktiki ödənilən vergi, bu Məcəlləyə uyğun olaraq həmin mənfəətdən ödənilməli mənfəət vergisindən 2 dəfə və ya daha çox aşağı olarsa;<br>• xarici müəssisənin illik gəlirlərinin 30 faizindən çox olan hissəsi aşağıdakı gəlirlərdən ibarət olarsa:<br>- maliyyə aktivlərindən əldə edilən faiz;<br>- əqli mülkiyyətdən əldə edilən royalti;<br>- səhmlərin və iştirak paylarının satışından əldə edilən gəlir;<br>- maliyyə lizinqindən əldə edilən gəlirlər;<br>- sığorta, bankçılıq və digər maliyyə əməliyyatlarından əldə edilən gəlirlər;<br>- heç bir iqtisadi dəyər yaratmayan mal və xidmətlərdən gəlir əldə edən müəssisələr üzrə gəlir. | Vergitutma məqsədləri üçün Azərbaycan Respublikasının rezidenti hesab olunmayan müəssisənin mənfəəti Azərbaycan Respublikasında vergiyə cəlb olunur.<br>• Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxs özü və ya qarşılıqlı surətdə asılı olduğu rezident və ya qeyri-rezident şəxslə birlikdə birbaşa və ya dolayısilə xarici müəssisədə 50 faizdən çox səsvermə hüququna və ya onun nizamnamə kapitalının 50 faizindən çoxuna və ya həmin xarici müəssisənin mənfəətinin 50 faizindən çox hissəsini əldə etmək hüququna sahibdirsə **və**;<br>• nəzarət olunan xarici müəssisənin mənfəətindən faktiki ödənilən vergi, bu Məcəlləyə uyğun olaraq həmin mənfəətdən ödənilməli mənfəət **vergisinin 75 faizinə və ya daha aşağı hissəsinə bərabər olarsa və**;<br>• xarici müəssisənin illik gəlirlərinin 30 faizindən çox olan hissəsi aşağıdakı gəlirlərdən ibarət olarsa:<br>- maliyyə aktivlərindən əldə edilən faiz;<br>- əqli mülkiyyətdən əldə edilən royalti;<br>- səhmlərin və iştirak paylarının satışından əldə edilən gəlir;<br>- maliyyə lizinqindən əldə edilən gəlirlər;<br>- sığorta, bankçılıq və digər maliyyə əməliyyatlarından əldə edilən gəlirlər;<br>- heç bir iqtisadi dəyər yaratmayan mal və xidmətlərdən gəlir əldə edən müəssisələr üzrə gəlir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət olunan xarici müəssisə

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir. | **Nəzarət olunan xarici müəssisənin mənfəətinin Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin vergi tutulan gəlirlərinə daxil edilməsi qaydası, habelə** nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Bazar qiymәti vә transfer qiymәti



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiә olunub.

# Bazar qiyməti

## Əlavələr

- Vergi ödəyicisi tərəfindən vergi nəzarəti tədbiri zamanı malların (işlərin, xidmətlərin) təqdim edilməsinə (alınmasına) dair sənədlər təqdim edilmədikdə (mövcud olmadıqda) vergi hesablanması zamanı bazar qiyməti nəzərə alınacaqdır.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Transfer qiyməti

## Əlavələr

- ***Kvartillərarası məqbul interval*** - bütün müqayisə edilən əməliyyatlardan seçilmiş müvafiq göstəricilərin (qiymət, marja və ya xüsusi çəki) aşağı kvartilinin medianı ilə yuxarı kvartilinin medianı arasındakı intervaldır. Transfer qiyməti kvartillərarası məqbul intervaldan kənarda olarsa, bu zaman vergi həmin intervalın medianından istifadə edilməklə hesablanır:

    - Aşağı kvartil - verilənlər bazasının aşağı yarısının medianı;
    - Yuxarı kvartil - verilənlər bazasının yuxarı yarısının medianı;

- ***Test edilən tərəf (müəssisə)*** - transfer qiymət metodunun ən etibarlı şəkildə tətbiq oluna biləcəyi və müqayisə üçün ən etibarlı məlumatların əldə ediləcəyi, yəni nəzarət olunan əməliyyatda mürəkkəblik baxımından ən sadə funksiyaları həyata keçirən tərəf.

- Müəssisənin yoxlanılan dövrdəki müvafiq göstəriciləri nəzarət olunmayan əməliyyatlar üzrə seçilən müəssisələrin yoxlanılan dövr və əvvəlki iki ilin orta göstəriciləri ilə müqayisə edilir. Bu halda müqayisə zamanı nəzarət olunmayan əməliyyatlar üzrə seçilən müəssisələrin illər üzrə fərqlənməsinə yol verilmir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Transfer qiyməti

## Əlavələr

- Vergi ödəyicisi transfer qiymətini özü müəyyənləşdirdiyi hallarda bu Qaydaların 7.4-cü bəndində nəzərdə tutulmuş sənədlər vergi orqanına təqdim edilir.

- Vergi ödəyicisi hər hansı nəzarət olunan əməliyyat aparılmazdan əvvəl transfer qiymətlərinin üsulunun əvvəlcədən razılaşdırılması üçün müvafiq müqavilə ilə birlikdə əməliyyatın bütün təfsilatları barədə məlumatları təqdim etməklə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müəyyən edilən ərizə ilə vergi orqanına müraciət edə bilər.

- Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması ilə bağlı müraciətə vergi orqanı tərəfindən 30 gün ərzində baxılır. Daxil olmuş müraciətin araşdırılması üçün əlavə vaxt tələb olunduğu halda səbəbi əsaslandırılmaqla vergi orqanının müraciətə baxılma müddətini hər dəfə 30 gün olmaqla iki dəfə uzatmaq hüququ var. Bu halda müraciət edən şəxsə icra müddətinin uzadıldığı tarixdən gec olmayaraq məlumat verilməlidir. İmtina üçün əsaslar olmadıqda transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə vergi ödəyicisinə məktub göndərilir. Vergi orqanının transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə məktubunun qüvvədə olma müddəti 3 ildir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Transfer qiyməti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • Sonrakı (təkrar) satış qiyməti üsulu – alınan malın təkrar satışı zamanı alış qiymətinin üzərinə əlavə olunan təkrar satış marjasının nəzarət olunmayan əməliyyatlarda formalaşan qiymətin tərkibindəki təkrar satış marjası ilə müqayisə edilərək, transfer qiymətinin müəyyən edilməsidir. | • Sonrakı (təkrar) satış qiyməti üsulu - sonrakı satış qiymətindən tətbiq olunmuş əlavələr çıxılmaqla müəyyənləşdirilir |
| • **Yalnız transfer qiymətinin qiymətlərin birbaşa müqayisəsi yolu ilə** müəyyən edilməsi mümkün olmadıqda, habelə, bu üsulun tətbiqi üçün müqayisə oluna bilən əməliyyatlar yaxud həmin əməliyyatlar üzrə qiymətlər haqqında mənbəyi bəlli olan **məlumatlar olmadıqda, digər üsullardan istifadə edilir**. | • **Qiymətlərin müqayisəsi üsulu ilə transfer qiymətinin** müəyyən edilməsi mümkün olmadıqda, habelə, bu üsulun tətbiqi üçün müqayisə oluna bilən əməliyyatlar yaxud həmin əməliyyatlar üzrə qiymətlər haqqında mənbəyi bəlli olan **məlumatlar olmadıqda, digər üsullardan istifadə edilir**. |
| • **Vergi orqanı vergi ödəyicisinin təqdim etdiyi əsaslandırmaların düzgün olmadığı (kifayət etmədiyi) və transfer qiymətinin başqa üsulla** və ya başqa müqayisə oluna bilən əməliyyatlardan istifadə edilməklə hesablanmalı olduğu qənaətinə gəldiyi halda, vergini **özünün hesablamaları** əsasında müəyyən etdiyi transfer qiyməti əsas götürülməklə hesablayır. | • **Vergi ödəyicisinin təqdim etdiyi sübutlar kifayət etmədiyi üçün vergi orqanı transfer qiymətinin başqa üsuldan** və ya başqa müqayisə oluna bilən əməliyyatlardan istifadə edilməklə hesablanmalı olduğu qənaətinə gəldiyi halda, vergini **öz araşdırmaları** əsasında müəyyən etdiyi transfer qiyməti əsas götürülməklə hesablayır. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Məcəllənin 16.9-cu maddəsində göstərilən hesabatın müəyyən edilmiş müddətdə, formada və qaydada təqdim edilməməsinə görə vergi ödəyicisinə 500 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. | Məcəllənin 16.9-cu maddəsində göstərilən hesabatın müəyyən edilmiş müddətdə, formada və qaydada təqdim edilməməsinə görə vergi ödəyicisinə **10,000** manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyindən tutulan vergi

## Əlavələr

Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlər bu maddənin məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir:

- **Qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəəti həmin qeyri-rezidentə köçürüldükdə (verildikdə).**

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyindən tutulan vergi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Güzəştli vergi tutulan xarici ölkə və ya ərazi dedikdə, vergi dərəcəsi bu Məcəllədə müəyyən edilmiş dərəcədən 2 dəfə və ya daha çox aşağı olan və (və ya) maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkə və ya ərazi başa düşülür. | 128.2. Güzəştli vergi tutulan xarici ölkə və ya ərazi dedikdə, aşağıdakı ölkələr və ya ərazilər başa düşülür:<br>128.2.1. vergi dərəcəsi bu Məcəllədə müəyyən edilmiş dərəcənin 75 faizi və ya daha aşağı hissəsinə bərabər olan ölkələr və ya ərazilər və (və ya);<br>128.2.2. Azərbaycan Respublikası ilə beynəlxalq müqavilələr çərçivəsində müvafiq standartlara uyğun məlumat mübadiləsini aparmayan ölkələr və ya ərazilər və (və ya);<br>128.2.3. maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkələr və ya ərazilər. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

**Kameral vergi yoxlaması**

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən bu Məcəllənin 72- ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışın təqdim edildiyi tarixdən mənfəət və gəlir vergisi bəyannaməsinə (ödəmə mənbəyində tutulan gəlirlər üzrə və xüsusi notariusun gəlir vergisi bəyannaməsi istisna olmaqla) münasibətdə 60 iş günü müddətində, digər bəyannamələrə, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışlara münasibətdə isə 30 iş günü müddətində keçirilir. Xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda kameral vergi yoxlaması bu Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən 30 iş günü müddətində keçirilir. Bu müddət başa çatdıqdan sonra bu maddənin birinci və ikinci cümləsində nəzərdə tutulmuş bəyannamə, cari vergi ödəmələrinin hesablanması haqqında arayış və ya xaricdən əldə olunan məlumatlar, habelə bu Məcəllənin 37.2-1-ci maddəsində göstərilən bildiriş üzrə verilmiş dəqiqləşdirilmiş bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz. | Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən bu Məcəllənin 72- ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışın təqdim edildiyi tarixdən mənfəət və gəlir vergisi bəyannaməsinə (ödəmə mənbəyində tutulan gəlirlər üzrə və xüsusi notariusun gəlir vergisi bəyannaməsi istisna olmaqla) münasibətdə 60 iş günü müddətində, digər bəyannamələrə, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışlara münasibətdə isə **90** iş günü müddətində keçirilir. Xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda kameral vergi yoxlaması bu Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən **90** iş günü müddətində keçirilir. Bu müddət başa çatdıqdan sonra bu maddənin birinci və ikinci cümləsində nəzərdə tutulmuş bəyannamə, cari vergi ödəmələrinin hesablanması haqqında arayış və ya xaricdən əldə olunan məlumatlar, habelə bu Məcəllənin 37.2-1-ci maddəsində göstərilən bildiriş üzrə verilmiş dəqiqləşdirilmiş bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Səyyar vergi yoxlaması

- Vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması ilə əlaqədar olaraq müvafiq məlumatın və ya sənədlərin əldə edilməsi məqsədilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində vergi orqanının nümayəndəsinin xarici dövlətin ərazisində vergi yoxlamasında iştirak etməsilə bağlı xarici ölkənin səlahiyyətli orqanına müraciət edildikdə - xarici dövlətdə aparılan yoxlama yekunlaşanadək növbəti və ya növbədənkənar səyyar vergi yoxlaması 9 aydan çox olmamaqla dayandırılır (təxirə salınır).

- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xarici dövlətlərin (ərazilərin) səlahiyyətli orqanının nümayəndəsi Azərbaycanda və ya Azərbaycan Respublikasının vergi orqanının səlahiyyətli nümayəndəsi həmin xarici dövlətdə (ərazidə) fəaliyyət göstərən vergi ödəyicisində keçirilən səyyar vergi yoxlamalarında iştirak edə bilər.

- Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində səyyar vergi yoxlamasında iştirakının təşkili qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Müxtəlif sahələr üzrə azadolmalar və güzəştlər



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar və güzəştlər

## Yerli istehsalın stimullaşdırılması

| Tətbiq olunan şəxslər | Azadolmalar və güzəştlər |
|---|---|
| *Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş idxal mallarını* ***yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq)*** *məhsullarının istehsalını həyata keçirən hüquqi və fiziki şəxslər* | 1. həmin fəaliyyətdən əldə edilən mənfəətin / gəlirin 50 faizi mənfəət / gəlir vergisindən - müvafiq siyahının təsdiq edildiyi ildən etibarən **7 il** müddətinə<br>2. həmin fəaliyyət prosesində istifadə olunan əmlaka əmlak vergisindən - müvafiq siyahının təsdiq edildiyi ildən etibarən **7 il** müddətinə<br>3. həmin fəaliyyət prosesində istifadə olunan torpaqlara görə torpaq vergisindən - müvafiq siyahının təsdiq edildiyi ildən etibarən **7 il** müddətinə |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar və güzəştlər

## Dövlət əmlakının özəlləşdirilməsi

| Tətbiq olunan şəxslər | Azadolmalar və güzəştlər |
|---|---|
| *Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin dövlət proqramlarına uyğun olaraq **2023-cü il 1 yanvar tarixindən sonra** özəlləşdirilməsi barədə qərar qəbul edilən **dövlətə məxsus hüquqi şəxslər*** | 1. Özəlləşdirilməsi barədə qərarın qəbul edildiyi ildən etibarən özəlləşdirilmə prosesi müddətində, lakin **3 ildən çox olmayaraq əmlak vergisini** ödəməkdən azaddırlar<br>2. Özəlləşdirilməsi barədə qərarın qəbul edildiyi ildən etibarən özəlləşdirilmə prosesi müddətində, lakin **3 ildən çox olmayaraq torpaq vergisini** ödəməkdən azaddırlar |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar və güzəştlər

## Vəkillər Kollegiyasına edilən ödənişlər

| Tətbiq olunan şəxslər | Azadolmalar və güzəştlər |
|---|---|
| *Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına edilən ödənişlər* | 1. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına vəkillər və vəkil qurumları tərəfindən edilən ödənişlər üzrə **elektron qaimə** təqdim olunması tələb olunmur<br>2. vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı edilən ödənişlər **mənfəət vergisindən** azaddır*<br>3. vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı edilən ödənişlər **ƏDV-dən** azaddır* |

**Vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir.*

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar və güzəştlər

## Kənd təsərrüfatı

| Tətbiq olunan şəxslər | Azadolmalar və güzəştlər |
|---|---|
| ***Kənd təsərrüfatı*** *məhsullarının istehsalı ilə məşğul olan* ***(o cümlədən, sənaye üsulu ilə)*** *fiziki və hüquqi şəxslər* | 1. fiziki şəxslərin bu **fəaliyyət üzrə satışdankənar gəlirləri**, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən **subsidiyalar**<br>**2. rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin dividend gəlirləri** - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə<br>3. hüquqi şəxslərin bu fəaliyyət üzrə **satışdankənar gəlirləri**, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən **subsidiyalar**, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) **rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin bu sahə üzrə dividend gəlirləri** - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar və güzəştlər

## Dövlət orqanlarına və fondlara əmlakın təqdim edilməsi

| Tətbiq olunan şəxslər | Azadolmalar və güzəştlər |
|---|---|
| ***Daşınar** və daşınmaz əmlak, **qeyri-maddi aktivlər**, habelə əmlak kompleksi şəklində müəssisələri dövlət orqanlarına və **ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara** əvəzsiz olaraq təqdim edən hüquqi və fiziki şəxslər* | 1. Qeyd edilən əmlak dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən **ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara** əvəzsiz olaraq verildikdə, **gəlir və ya mənfəət vergisinə** cəlb edilən gəlir yaranmır.*<br>2. Qeyd edilən əmlak dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən **ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara** əvəzsiz olaraq verildikdə, **ƏDV-yə** cəlb edilən gəlir yaranmır.*<br>3. Qeyd edilən əməliyyat ƏDV-yə cəlb olunmayan əməliyyat hesab edilsə də, Vergi Məcəlləsinin **175.6-cı maddəsinə** uyğun olaraq ƏDV-nin əvəzləşdirilməsi zamanı ƏDV-yə cəlb olunmayan dövriyyə kimi **nəzərə alınmır**. |

**İctimai və sosial məqsədlər üçün yaradılmış fondlara münasibətdə 2022-ci il yanvarın 1-dən tətbiq edilir*

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar və güzəştlər

## Müflis elan olunmuş kredit təşkilatları

| Tətbiq olunan şəxslər | Azadolmalar və güzəştlər |
|---|---|
| *Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə **müflis elan olunmuş kredit təşkilatları*** | 1. ödəmə müddəti ötmüş vergi öhdəliklərinə **faizlərin hesablanması** kredit təşkilatının müflis elan olunması haqqında məhkəmə qərarının qəbul edildiyi gündən etibarən **dayandırılır**<br>2. əmlakı siyahıya alınmır<br>3. kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi aydan etibarən **əmlak vergisini** ödəməkdən azaddırlar<br>4. kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi aydan etibarən **torpaq vergisini** ödəməkdən azaddırlar |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, qeyri-rezident banklar



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, qeyri-rezident banklar

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında hesabların açılması üçün vergi orqanlarından alınmış **şəhadətnamə-dublikatların** bildiriş hissəsində müvafiq qeydlər etməklə, bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim etmək | 16.1.11. sahibkarlıq fəaliyyəti məqsədləri üçün **qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə** açılmış hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş **formada məlumatı vergi orqanına** təqdim etmək* |

*2023-cü ilin oktyabr ayının 1-dən qüvvəyə minir

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, qeyri-rezident banklar

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| Vergi orqanından **şəhadətnamə-dublikat alınmadan** sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) **mədaxil edilmiş pul vəsaitinin 100 faiz** miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir. | Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan qeyri-rezident şəxslərdə açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) dair **forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş məlumatın** bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək **vergi orqanına təqdim edilməməsinə görə** həmin hesaba **mədaxil edilmiş pul vəsaitinin 100 faizi** miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir.* |

*2023-cü ilin oktyabr ayının 1-dən qüvvəyə minir

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, yerli banklar



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, vergi ödəyicilərinə hesabların açılması

## Dəyişikliklər və əlavələr

- Vergi ödəyiciləri vergi uçotuna alındıqdan sonra hesab açmaq üçün **bank əməliyyatları aparan şəxslərə** müraciət edir.
- Bank əməliyyatları aparan şəxslər vergi ödəyicilərinə hesablar açır və açılmış hesabların vergi orqanında qeydiyyata alınması üçün forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən **təsdiq edilən məlumatı hesab açıldığı tarixdən 1 iş günü müddətində elektron qaydada vergi orqanına göndərir**.

- Açılmış hesab daxil olmuş məlumat əsasında **vergi orqanı tərəfindən real vaxt rejimində avtomatlaşdırılmış qaydada qeydiyyata alınır** və bu barədə bank əməliyyatları aparan şəxslərə qeydiyyat bildirişi göndərilir.
- **Qeydiyyat bildirişi daxil olanadək** bank əməliyyatı aparan şəxslər tərəfindən hesab üzrə **məxaric** əməliyyatlarının aparılması **qadağandır**.

- Adına hesab açılmış **vergi ödəyicisinin** dövlət büdcəsinə və büdcədənkənar fondlara vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə **borcu olduğu** və bu Məcəllənin 65.1-ci maddəsi ilə müəyyən edilən **müddət bitdiyi halda,** vergi orqanı tərəfindən hesabın qeydiyyata alınmasına dair **bildirişlə yanaşı eyni gündə** həmin hesab üzrə bu Məcəllənin 65-ci maddəsinə uyğun olaraq **sərəncam da göndərilir** və bildirişdə bu barədə qeyd edilir.

- Hesab üzrə vergi orqanının sərəncamının göndəriləcəyi barədə qeyd olan hesab üzrə bank əməliyyatı aparan şəxslər tərəfindən həmin hesab üzrə vergi orqanının sərəncamı daxil olanadək sərəncamda göstərilən məbləğin 105 faizi həcmində məxaric əməliyyatlarının aparılması məhdudlaşdırılır. Bank əməliyyatlarını aparan şəxslər tərəfindən vergi orqanının sərəncamı daxil olanadək hesabdan məxarici məhdudlaşdırılan vəsaitdən artıq olan pul vəsaiti olduğu halda həmin artıq pul vəsaitinin hesabdan məxaric edilməsini nəzərdə tutan vergi ödəyicisinin ödəmə tapşırıqları icra edilir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, vergi ödəyicilərinə hesabların açılması

## Dəyişikliklər və əlavələr

- Vergi ödəyicilərinə məxsus hesabların bank əməliyyatı aparan şəxslərin **özü, filial və ya struktur bölmələri arasında köçürülməsi zamanı** bank əməliyyatı aparan şəxslər köçürülən hesablar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada məlumatı **hesabın köçürüldüyü tarixdən 1 iş günü müddətində elektron qaydada** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir.

- Vergi ödəyicilərinə məxsus **hesablar bank əməliyyatı aparan şəxslər tərəfindən bağlandıqda** həmin şəxslər bu barədə məlumatı hesabın **bağlandığı tarixdən 1 iş günü müddətində** elektron qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir.*

*2023-cü ilin oktyabr ayının 1-dən qüvvəyə minir

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, vergi ödəyicilərinə hesabların açılması, maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Vergi orqanı tərəfindən hüquqi şəxsə, fərdi sahibkara, filiala və nümayəndəliyə bu Məcəllənin 35-ci maddəsinə uyğun olaraq vergi orqanı tərəfindən verilən **şəhadətnamə-dublikat olmadan**, bu Məcəlləyə uyğun olaraq sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin **hesablaşma hesabı və ya digər hesablar açdığına görə** - hər açılmış hesab **400 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. | Vergi ödəyicisinə hesablar açdıqda həmin hesabların **vergi orqanında qeydiyyata alınması üçün elektron məlumatın** bu Məcəllənin 35.1-ci maddəsinə uyğun olaraq vergi orqanına **təqdim edilməməsinə görə** - hər açılmış hesab üzrə **400 manat** məbləğində, habelə vergi orqanında qeydiyyata alınmamış hesablar üzrə və ya bu Məcəllənin 35.2-ci maddəsində müəyyənləşdirilən qeydiyyat bildirişi daxil olanadək **məxaric əməliyyatları** (dövlət büdcəsinə və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə büdcədənkənar fondlara məxaric əməliyyatları istisna olmaqla) aparıldığı halda aparılmış **məxaric əməliyyatının 50 faizi miqdarında maliyyə sanksiyası** tətbiq edilir. |

*2023-cü ilin oktyabr ayının 1-dən qüvvəyə minir

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Şəhadətnamə dublikatın ləğvi, vergi ödəyicilərinə hesabların açılması

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Bu Məcəllənin 76.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisinin vergi öhdəliklərinin müəyyən edilməsi məqsədilə vergi ödəyicilərinin **şəhadətnamə-dublikat əsasında açılmış hesabları** üzrə aparılmış əməliyyatlar barədə aylıq məlumatlar bank əməliyyatları aparan şəxslər tərəfindən elektron qaydada hər ay bitdikdən sonra **növbəti ayın 10-dək** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) **təqdim edilir**. | 76.1-1. Bu Məcəllənin 76.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisinin vergi öhdəliklərinin müəyyən edilməsi məqsədilə vergi ödəyicilərinin ~~şəhadətnamə-dublikat əsasında~~ **sahibkarlıq fəaliyyəti məqsədləri üçün** açılmış hesabları üzrə aparılmış əməliyyatlar barədə aylıq məlumatlar bank əməliyyatları aparan şəxslər tərəfindən elektron qaydada hər ay bitdikdən sonra **növbəti ayın 10-dək** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) **təqdim edilir**. |

*2023-cü ilin oktyabr ayının 1-dən qüvvəyə minir

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə institutları və banklar üçün digər tələblər



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə institutları və banklar üçün digər tələblər, maliyyə sanksiyası

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Maliyyə institutlarına aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir: | Maliyyə institutlarına aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir: |
| bu Məcəllənin 76-1-ci maddəsinin tələblərini icra etməməyə görə – aparılmış əməliyyatın ümumi məbləğinin 30 faizi miqdarında, bu hesablar üzrə əməliyyat aparılmadıqda isə, hər belə hesab üçün 400 manat məbləğində; | bu Məcəllənin 76-1-ci maddəsinin tələblərini icra etməməyə görə – ~~aparılmış əməliyyatın~~ **hesaba mədaxil olunmuş vəsaitin** ümumi məbləğinin 30 faizi miqdarında, bu hesablar üzrə əməliyyat aparılmadıqda isə, hər belə hesab üçün 400 manat məbləğində; |

*76-1. Maliyyə institutları vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları müvafiq hədlərdə və qaydada müvafiq icra hakimiyyəti orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim etməlidir.*

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə institutları və banklar üçün digər tələblər

## Əlavələr

- Bu Məcəllənin 65.2-ci maddəsinə uyğun olaraq vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin **105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması** haqqında sərəncam olduqda, vergi ödəyicisi **dondurulmuş pul vəsaitinin dövlət büdcəsinə köçürülməsi ilə bağlı** kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslərə **ödəniş tapşırığı təqdim edə bilər** və həmin şəxslər vergi ödəyicisinin ödəniş tapşırığında göstərilən məbləğdə pul vəsaitinin dövlət büdcəsinə **köçürülməsini təmin edir.**

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə institutları və banklar üçün digər tələblər

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Maliyyə institutları tərəfindən məlumatların verilməsi | Maliyyə institutları tərəfindən məlumatların verilməsi |
| Maliyyə institutları vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hədlərdə və qaydada müvafiq icra hakimiyyəti orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim etməlidir. | Maliyyə institutları ~~vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin~~ **qeyri-rezidentlərin** Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hədlərdə və qaydada müvafiq icra hakimiyyəti **orqanına** ~~vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına~~ təqdim etməlidir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri idxal ediləcək mallar barədə aşağıdakı **məlumatları malların idxal olunacağı tarixədək** qeydiyyatda olduğu vergi orqanına verməlidir:<br>- Mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;<br>- Mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;<br>- Mallar sifariş əsasında gətirildiyi halda sifariş verən şəxslər barədə (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə. | Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən, **habelə "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən** vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə aşağıdakı məlumatları **malların gömrük nəzarətindən çıxdığı vaxtadək** (**hava nəqliyyatı ilə daşınan malların gömrük nəzarətindən çıxdığı vaxtdan 1 iş günü müddətində**) uçotda olduğu vergi orqanına verməlidir:<br>- Mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;<br>- Mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;<br>- Mallar sifariş əsasında gətirildiyi halda sifariş verən şəxslər barədə (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə.<br>**Vergi ödəyicisinin vergi orqanında uçota alınmış bir təsərrüfat subyekti (obyekti) olduğu halda bu maddədə nəzərdə tutulan məlumat forması vergi orqanına təqdim edilmir. Bu halda idxal edilmiş mallar həmin təsərrüfat subyektinə (obyektinə) boşaldılmış hesab olunur.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Sığortaçılar və **təkrarsığortaçılar** tərəfindən hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə məxsus sığortalanmış **(təkrarsığortalanmış)** əsas vəsaitlər barədə məlumat rüb bitdikdən sonra növbəti ayın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir. | Sığortaçılar tərəfindən hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə və **fərdi sahibkarlara** məxsus sığortalanmış əsas vəsaitlər barədə məlumat rüb bitdikdən sonra növbəti ayın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Bu Məcəllənin 33.3-cü maddəsində nəzərdə tutulmuş halda vergi orqanı 5 gün müddətində fərdi sahibkara onun vergi uçotuna alınması barədə məlumat verir. | Bu Məcəllənin 33.3-cü və 33.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, vergi orqanında uçota alınmaq üçün ərizə təqdim etməyən fiziki şəxsi **vergi orqanı öz təşəbbüsü ilə vergi uçotuna alır** və **5 gün müddətində** ona vergi uçotuna alınması barədə **bildiriş göndərir**. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi



# Ödəmə mənbəyindən tutulan vergi

## Əlavələr

Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividenddən texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq 10 il müddətinə ödəmə mənbəyində vergi tutulmur.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə bu Məcəllənin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur. | İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə bu Məcəllənin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur.<br>**Təqvim ilinin sonuna bu maddə ilə müəyyən edilmiş qaydada hər bir kateqoriya üzrə kapitallaşdırılmış təmir xərclərinin məbləği 500 manatdan az olduqda həmin məbləğ gəlirdən çıxılır.** |

# Mənfəət vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi – 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə isə - 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. | ~~paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və~~ dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi – 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə, **siyahısı** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən **təsdiq edilən** ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə isə - 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 10 il müddətinə. | müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 10 il müddətinə. **Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən hüquqi şəxslərin həmin fəaliyyətdən (o cümlədən həmin fəaliyyətin həyata keçirilməsindən irəli gələrək alıcılara göstərilən təkmilləşmə, texniki dəstək və təlim xidmətləri) əldə etdikləri gəlirə münasibətdə də tətbiq edilir.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Əlavələr

Fiziki şəxslərin gəlir vergisinin dərəcələri ilə bağlı Qanun ilə yeni müddəalar əlavə edilir

- texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar fəaliyyət göstərən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən əldə edilən aylıq gəlirlərindən gəlir vergisi aşağıdakı qaydada tutulur:
    - 2023-cü il yanvarın 1-dən 3 il müddətində aylıq gəlir 8000 manatadək olduqda 0 faiz, 8000 manatdan çox olan məbləğin 5 faizi;
    - 2026-cı il yanvarın 1-dən 7 il müddətində aylıq gəlirin 5 faizi.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Əlavələr

Fiziki şəxslərin gəlir vergisi ilə bağlı Qanunda yeni azadolmalar müəyyən edilir və bəzi azadolmalarla bağlı dəyişikliklər tətbiq edilir

- şəhid ailəsi statusu verilmiş şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan **aylıq gəliri 800 manat məbləğində azaldılır**.

- “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq əhali qrupuna daxil olan **aktiv istehlakçının bərpa olunan enerji mənbələri hesabına** 150 kVt (150 kVt daxil olmaqla) güc həddinədək **istehsal etdiyi elektrik enerjisinin elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə olunan gəlir**.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir (əmək haqqından tutulan gəlir vergisi istisna olmaqla) - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 10 il müddətinə. | Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir (əmək haqqından tutulan gəlir vergisi istisna olmaqla) - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 10 il müddətinə. **Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərin həmin fəaliyyətdən (o cümlədən həmin fəaliyyətin həyata keçirilməsindən irəli gələrək alıcılara göstərilən təkmilləşmə, texniki dəstək və təlim xidmətləri) əldə etdikləri gəlirlərə münasibətdə də tətbiq edilir.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində isə – 200 manatadək. | Yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda **(idman yarışları istisna olmaqla)** və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, **regional**, şəhər və rayon yarışlarında **(idman yarışları istisna olmaqla)** və müsabiqələrində isə 200 manatadək<br><br>**Beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən pul şəklində verilən mükafatların dəyəri 50000 manatadək.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri. | 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində **Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda <u>rezident hüquqi şəxslər</u> tərəfindən** kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır:<br>• 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar; | Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır:<br>• 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri, və arvadları (ərləri) **və övladları**. Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar; |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Məcburi dövlət sosial sığorta haqqı



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Məcburi dövlət sosial sığorta haqqı

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Azərbaycan Respublikası Milli Məclisinin qərarı, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamları ilə vəzifəyə təyin olunan şəxslər; əmək müqaviləsi (kontraktı) ilə işləyən Azərbaycan Respublikasının vətəndaşları və vətəndaşlığı olmayan şəxslər; Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilər (*qanunla təsdiq olunmuş neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında* Sazişlər çərçivəsində fəaliyyət göstərən podratçı və subpodratçı tərəflərdə işləyən, *habelə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən (2016-cı il mayın 1-dən 5 il müddətində)* əcnəbilər istisna olmaqla); seçkili ödənişli vəzifələrdə işləyənlər, hərbi qulluqçular və xüsusi rütbəli şəxslər (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla); prokurorlar, prokurorun müavinləri və köməkçiləri, prokurorluğun müstəntiqləri vergi orqanlarının işçiləri; vəkillər kollegiyasının üzvləri; *mediatorlar;* fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər — məcburi dövlət sosial sığortası ilə əhatə olunurlar. | Azərbaycan Respublikası Milli Məclisinin qərarı, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamları ilə vəzifəyə təyin olunan şəxslər; əmək müqaviləsi (kontraktı) ilə işləyən Azərbaycan Respublikasının vətəndaşları və vətəndaşlığı olmayan şəxslər; Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən **vətəndaşlığı olmayan şəxslər və** əcnəbilər (*qanunla təsdiq olunmuş neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında* Sazişlər çərçivəsində fəaliyyət göstərən podratçı və subpodratçı tərəflərdə işləyən, *habelə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən (2016-cı il mayın 1-dən 5 il müddətində)****, həmçinin texnologiyalar parkının rezidenti (o cümlədən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər), onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən (2023-cü il yanvarın 1-dən 10 il müddətinə) vətəndaşlığı olmayan şəxslər və*** əcnəbilər istisna olmaqla); seçkili ödənişli vəzifələrdə işləyənlər, hərbi qulluqçular və xüsusi rütbəli şəxslər (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla); prokurorlar, prokurorun müavinləri və köməkçiləri, prokurorluğun müstəntiqləri vergi orqanlarının işçiləri; vəkillər kollegiyasının üzvləri; *mediatorlar;* fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər — məcburi dövlət sosial sığortası ilə əhatə olunurlar. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Məcburi dövlət sosial sığorta haqqı

## Əlavələr

Texnologiyalar parkının rezidenti (o cümlədən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər), onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən fiziki şəxslər (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) üzrə, 2023-cü il yanvarın 1-dən 10 il müddətində məcburi dövlət sosial sığorta haqqı öz seçimlərindən asılı olaraq minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından və ya muzdlu işdən əldə edilən gəlirlərdən bu Qanunun 14.3-cü və 14.4-cü maddələrinə uyğun olaraq ödənilir.

Bu maddədə nəzərdə tutulan sığortaolunan hər il yanvar ayının 15-dək öz seçimi barədə yazılı məlumatı sığortaedənə təqdim edir və təqvim ilinin sonunadək həmin seçim dəyişdirilmir. Növbəti təqvim ili üçün sığortaolunan qeyd olunan müddətdə seçimi barədə yazılı məlumatı təqdim etmədikdə, sığortaedən əvvəlki ildə həmin sığortaolunanın seçimini tətbiq edir. Təqvim ili ərzində qeyd edilən kateqoriyadan olan yeni işəgötürülən şəxsə münasibətdə isə müqavilə bağlamaq üçün ərizədə qeyd etdiyi seçimi tətbiq edilir.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergidən azadolma

- 164.1.5. idxal olunan əmlak istisna olmaqla müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın **(əsas vəsaitlər istisna olmaqla)** qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);
- 164.1.36. ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi, habelə bankın iflas proseduru çərçivəsində aktivlərinin təqdim edilməsi – 2017-ci il yanvarın 1-dən ~~5~~ **9** il müddətinə;
- 164.1.41-1. istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı – 2022-ci il yanvarın 1-dən ~~3~~ **4** il müddətinə;
- 164.1.52. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində avadanlıqların və materialların idxalı – 2021-ci il yanvarın 1-dən ~~2~~ **4** il müddətinə;
- **165.1.10. müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulmasına (əsas vəsaitin pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda) görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur.**

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Bu Məcəllənin 159.6-cı maddəsi tətbiq edildikdə, ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) vergi tutulan əməliyyatın vaxtı sayılır. | Bu Məcəllənin 159.6-cı maddəsi tətbiq edildikdə, vergi tutulan əməliyyatın **(o cümlədən malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə)** vaxtı ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) sayılır. |

*159.6. Vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun **sahibliyində qalan mallar** həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir.*

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi, ƏDV geri al

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), habelə tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir. Bu maddəyə uyğun olaraq qaytarılan məbləğ nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizini, nağd qaydada ödənilmiş ƏDV-nin 10 faizini təşkil edir. Ödənilmiş ƏDV-nin bu maddə ilə müəyyən olunmuş hissəsinin qaytarılması zamanı təqdim edilən nəzarət-kassa aparatının çeki bu Məcəllənin 50.8-ci maddəsinin tələblərinə cavab verməlidir. | Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), habelə tibb müəssisələri **və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər** tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir. Bu maddəyə uyğun olaraq qaytarılan məbləğ nağdsız qaydada ödənilmiş ƏDV-nin ~~15~~ **17,5** faizini, nağd qaydada ödənilmiş ƏDV-nin ~~10~~ **5** faizini təşkil edir. Ödənilmiş ƏDV-nin bu maddə ilə müəyyən olunmuş hissəsinin qaytarılması zamanı təqdim edilən nəzarət-kassa aparatının çeki bu Məcəllənin 50.8-ci maddəsinin tələblərinə cavab verməlidir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 190.3.14. qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər – hər kiloqramına 30,0 manat | 190.3.14. qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər – hər kiloqramına ~~30,0~~ **22,0** manat |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Vergitutma məqsədləri üçün müəssisənin və fərdi sahibkarın əmlakının dəyəri aşağıdakı əmlakların dəyərində azaldılır:<br>• ekologiya, yanğından mühafizə və ya mülki müdafiə üçün istifadə edilən əsas vəsaitlər; | Vergitutma məqsədləri üçün müəssisənin və fərdi sahibkarın əmlakının dəyəri aşağıdakı əmlakların dəyərində azaldılır:<br>• ekologiya və yanğından mühafizə ~~və ya mülki müdafiə üçün~~ istifadə edilən əsas vəsaitlər;<br>• **müəssisələrin mülkiyyətində (balansında) olan və siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən mülki müdafiə təyinatlı əmlaklar*** |
| Müəssisənin və fərdi sahibkarın əsas vəsaitləri qalıq dəyərindən artıq qiymətə sıgğortalandığı halda əmlak vergisi bu Məcəllənin 14-cü maddəsinə əsasən müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanır. | Müəssisənin və fərdi sahibkarın əsas vəsaitləri qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda əmlak vergisi bu Məcəllənin 14-cü maddəsinə əsasən **sığortalanma tarixinə əmlakın bazar dəyərinə uyğun olaraq** müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanır. |

**Siyahı təsdiq edildiyi ildən qüvvəyə minir. Siyahı təsdiq edilən ilədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mülki müdafiə təyinatlı əmlakları **(yeraltı əmlakları (eskalatorlar, havalandırma sistemləri, vaqonlar və digər əmlaklar) və yeraltı əmlaklarla bilavasitə bağlı olan keçidlər)** əmlak vergisindən azaddır*

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, 10 il müddətinə sənaye və texnologiyalar parkındakı əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. | Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, 10 il müddətinə sənaye və texnologiyalar parkındakı əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. **Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərə də tətbiq edilir.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Bu Məcəllənin 218.5.10-cu maddəsinin müddəalarından asılı olmayaraq vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi həyata keçirilirsə, rüb ərzində **elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi** xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin **30 faizindən çox olmadıqda**. | Bu Məcəllənin 218.5.10-cu maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən və görülən işlərdən başqa, xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə (işlə) yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi və işlərin görülməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların **(qeyri-rezident hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri rezident fiziki şəxslərə hesab-faktura (invoys) əsasında göstərilən xidmətlərin və görülən işlərin dəyəri də daxil olmaqla)** həcmi xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda.<br><br>**Bu Məcəllənin 218.6-cı maddəsinin müddəaları malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ibarət qarışıq əməliyyatlar aparılan hallara da tətbiq edilir.**<br><br>**Bu Məcəllənin 218.6.1-ci və 218.6.2-ci maddələrində göstərilən şərtlər ödənilmədikdə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən sonrakı ayın 1-dən ləğv edilir.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, sənaye və texnologiyalar parkında istifadə etdikləri torpaqlara görə 10 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar. | Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, sənaye və texnologiyalar parkında istifadə etdikləri torpaqlara görə 10 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar. **Bu maddədə nəzərdə tutulan güzəşt texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərə də tətbiq edilir.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Vergi hesabatını və ya bu Məcəllənin 16.2-ci maddəsində nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. | **Hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən (vergiyə cəlb edilməyən) əməliyyatlar aparan, vergitutma obyektləri olan vergi ödəyicisi tərəfindən** vergi hesabatının ~~və ya bu Məcəllənin 16.2-ci maddəsində nəzərdə tutulmuş arayışı~~ əsas olmadan müəyyən edilən müddətdə ~~təqdim etməyən~~ **təqdim edilməməsinə görə** vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. |

# Maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Bu Məcəllənin 175.1.3-cü maddəsinə müvafiq olaraq bu Məcəllənin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec ƏDV məbləğinin ödənilməsinə görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. | Bu Məcəllənin 175.1.3-cü maddəsinə müvafiq olaraq bu Məcəllənin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən ~~gec ƏDV məbləğinin ödənilməsinə~~ **1 iş günü müddətində ƏDV məbləğinin ödənilməməsinə** görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Bu Məcəlləyə əsasən elektron qaimə-faktura təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsinə, topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə, habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsinə görə – malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə təqdim edilmiş malların satış qiymətinin 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. | Bu Məcəlləyə əsasən elektron qaimə-faktura təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsinə, topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə **(elektron ticarət qaydasında satılan malların sifariş edilərək pərakəndə satış ticarət obyektlərinə məxsus anbarlardan təqdim edilməsi istisna olmaqla),** habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsinə görə – malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə təqdim edilmiş malların satış qiymətinin 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət kassa aparatı



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət kassa aparatı

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 50.8. Nəzarət-kassa aparatının çeklərində aşağıdakı məlumatlar olmalıdır: | 50.8. Nəzarət-kassa aparatının çeklərində aşağıdakı məlumatlar olmalıdır: |
| 50.8.1. vergi ödəyicisinin adı; | 50.8.1. vergi ödəyicisinin adı; |
| 50.8.2. VÖEN-i; | 50.8.2. ~~VÖEN-i~~ **VÖEN**; |
| 50.8.3. çekin vurulmasının tarixi və saatı; | 50.8.3. çekin vurulmasının tarixi və saatı; |
| 50.8.4. təsərrüfat subyektinin (obyektinin) adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan; | 50.8.4. təsərrüfat subyektinin (obyektinin) adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan; |
| 50.8.5. malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği); | 50.8.5. malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin **dərəcəsi və** məbləği); |
| 50.8.6. gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi; | 50.8.6. ~~gün~~ **cari növbə** ərzində vurulmuş çeklərin sayı və **çekin** nömrəsi; |
| 50.8.7. nəzarət-kassa aparatının markası və zavod nömrəsi. | 50.8.7. nəzarət-kassa aparatının markası və zavod nömrəsi. |
| 50.8.8. nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti). | 50.8.8. nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti). |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət kassa aparatı

## Sadələşdirilmiş vergi

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 50.8.9. malın sürətli məlumat kodu (Quick Response Code); | 50.8.9. malın sürətli məlumat kodu (Quick Response Code); |
| 50.8.10. ödənilmiş məbləğ; | 50.8.10. ödənilmiş məbləğ; |
| | **50.8.10-1. avans (beh) ödənişi çekində avans (beh) üzrə ödənilmiş məbləğ;** |
| 50.8.11. müştəriyə qaytarılan məbləğ (malın dəyərindən artıq ödənilən hissə üzrə); | 50.8.11. müştəriyə qaytarılan məbləğ (malın **və ya xidmətin (işin)** dəyərindən artıq ödənilən hissə üzrə); |
| 50.8.12. nisyə satış zamanı ödəniləcək məbləğ (qalıq borc); | 50.8.12. nisyə satış zamanı ödəniləcək məbləğ (qalıq borc); |
| 50.8.13. ödənişin forması və üsulu (nağd və ya nağdsız, avans (beh), nisyə, bonus, hədiyyə kartı və digər bu kimi ödəmələr); | 50.8.13. ödənişin forması və üsulu ~~(nağd və ya nağdsız, avans (beh), nisyə, bonus, hədiyyə kartı və digər bu kimi ödəmələr)~~ **(nağd, nağdsız, bonus, hədiyyə kartı)**; |
| 50.8.14. çekin növü (satış, geri qaytarma və ya ləğvetmə); | 50.8.14. çekin növü (satış, geri qaytarma, ~~və ya~~ ləğvetmə, **avans (beh) ödənişi, nisyə satış üzrə ödəniş**); |
| 50.8.15. nəzarət mexanizmi qurğusunun qeydiyyat nömrəsi; | 50.8.15. nəzarət mexanizmi qurğusunun qeydiyyat nömrəsi; |
| 50.8.16. geri qaytarma çekində satış çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar. | 50.8.16. geri qaytarma, **ləğv etmə və satış (avans üzrə)** ~~çekində~~ **çeklərində** ~~satış çeki~~ **həmin çeklərlə bağlı olan müvafiq çeklər** üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar **(unikal identifikator)**; |
| | **50.8.17. nisyə satış üzrə ödəniş çekində nisyə satış üzrə ödəniləcək məbləğin və ödəniş üzrə ardıcıllığın nömrəsi, habelə satış (nisyə) çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator);** |
| | **50.8.18. yanacaq doldurma məntəqələri tərəfindən vergi ödəyicilərinə yanacaq kartı (talon) əsasında təqdim edilən yanacağa görə satış çekində alıcının nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı.** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Məsuliyyətə cəlb etmə, vergilərin ödənilmə və geri alınma müddəti



© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Məsuliyyətə cəlb etmə, vergilərin ödənilmə və geri alınma müddəti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 3 illik müddət | bu Məcəllənin 71.4-cü maddəsi ilə müəyyən edilmiş sənədlərin və məlumatların saxlanılması ilə bağlı ən azı **5 il** |
| Hansı tarixdən başlaması mübahisəli idi | səyyar vergi yoxlaması zamanı əlavə hesablanmış vergilər, faizlər və maliyyə sanksiyaları üzrə səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə çıxarılmış **qərarın tarixindən** etibarən **5 il** |
| 3 illik müddət | bu Məcəllənin 38.3.3-cü və 38.3.4-cü maddələrinə uyğun olaraq həyata keçirilən səyyar vergi yoxlamasının nəticələri üzrə çıxarılmış **qərarın tarixindən** etibarən **5 il** |

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 330,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

© 2023 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.